# Qarabağ və Şərqi Zəngəzur ölkəni "yaşıl enerji" ilə təmin edəcək

**Dünyada enerji mənbələrinin tədricən tükənməsini və onlardan istifadə zamanı ətraf mühitə vurulan külli miqdarda ziyanı nəzərə alaraq, inkişaf etmiş ölkələrdə ekoloji cəhətdən bərpa olunan enerji mənbələrindən - günəş, külək enerjisi, kiçik SES-lər, termal sular, biokütlə enerjisindən geniş istifadə olunur.**








Azərbaycan dünyada yeganə ölkədir ki, ağır müharibədən dərhal sonra işğaldan azad edilən torpaqlarda bərpa və yenidənqurmaya başlayıb. Prezident İlham Əliyevin yeni iqtisadi rayonların yaradılması haqqında imzaladığı Fərman Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı işlərin yerinə yetirilməsi üçün hüquqi baza yaradıb. İşğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması, əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində hər iki bölgədə genişmiqyaslı tədbirlər həyata keçirilir. Halbuki, otuz illik işğal dövründə ermənilər Qarabağ və Şərqi Zəngəzurun yeraltı və yerüstü sərvətlərini talayıb, qızıl yataqlarını istismar edərək satıblar. Əlbəttə, bu erməni faşizminin iç üzü, onun xislətidir. Yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadəyə imkan verir. Məhz buna görə də 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" qəbul edilib. Dövlət Proqramının qəbulu bərpaolunan enerji mənbələrinin istifadəsində əsaslı dəyişikliklərin həyata keçirilməsinə və ölkəmizin bu sahədəki potensialının dəyərləndirilməsinə geniş imkanlar yaradıb. Məqsəd bərpaolunan və ekoloji cəhətdən təmiz mənbələrdən enerji istehsalını genişləndirməkdən və karbohidrogen enerji resurslarından daha səmərəli istifadəni təmin etməkdir. Bərpaolunan enerji növlərinin istehsalı enerji sahəsində Azərbaycanın gündəliyində duran ən başlıca vəzifələrdən biridir. 2022-ci il mayın 3-də Prezident "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Bu istiqamətdə çox böyük layihələrin icra edilməsinə başlanılıb.

Ölkəmiz həm də beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri məhz "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində ardıcıl işlər aparılır. 1990-cı illərdə xaricdən elektrik enerjisi alan Azərbaycan bu gün artıq elektrik enerjisi ixrac edir. Üstəgəl, Qarabağ və Şərqi Zəngəzurun enerji potensialı ölkəmizdə enerji istehsalını bir neçə dəfə artıracaq. Bərpaolunan enerji növlərinin inkişafı da məhz həmin məqsədə yönəldilib. Məlum olduğu kimi, bu istiqamətdə böyük planlar tərtib olunub və genişmiqyaslı işlər həyata keçirilir. Bu məqsədlə Yaponiyanın TEPSCO şirkəti cəlb edilməklə "yaşıl enerji zonası" nın yaradılması üzrə müfəssəl Konsepsiya hazırlanıb, Baş Plan tərtib olunub. Layihə çərçivəsində ərazilərin inkişafı və məskunlaşma variantları üzrə müxtəlif enerji tələbatı və təchizatı məsələlərinə baxılıb. Eyni zamanda, bu bölgələrdə hidro, günəş, külək, biokütlə, geotermal və digər bərpaolunan enerji potensialının öyrənilməsi, mövcud resurslardan istifadə etməklə külək və günəş enerji stansiyalarının və həmçinin su anbarlarında, kiçik çaylarda su elektrik stansiyalarının tikilməsi istiqamətində davamlı araşdırmalar aparılıb.

İşğaldan azad edilmiş ərazilər "yaşıl enerji" zonası elan edilib. Həm də bu ərazilər üzrə Azərbaycan 2050-ci ilə qədər sıfır karbon emissiyası öhdəliyi götürüb. Gələcək illərdə qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən yararlanacağıq. Əlbəttə, atılan addımların məqsədi vətəndaşları keyfiyyətli enerji ilə təmin etmək və "yaşıl enerji"yə keçməkdir. Mütəxəssislərin qənaətinə görə Qarabağda istehlak təqribən 40 meqavatdan az, amma elektrik enerjisinin istehsalı 100 meqavat üzərindədir. Regionlararası münasibətlərə baxanda görmək olur ki, Qarabağ nəinki öz-özünü yaşıl enerji ilə təmin edir, hətta bunu ölkəmizin digər yerlərinə də ötürmüş olur. Bu rəqəmlərin dəfələrlə artması nəzərdə tutulur. Çünki ən optimist ssenarilərə görə bu regionun tələbatı 1000 meqabat ətrafında olacaq. Ölkənin hazırkı istehsal sürəti bundan çoxdur. Yəni Qarabağ və Şərqi Zəngəzur gələcəkdə nəinki özünü, hətta ölkənin digər yerlərini də "yaşıl enerji" ilə təmin edəcək. Energetiklər qeyd edirlər ki, enerji dörd dəyər zəncirinə ayrılır: istehsal, ötürmə, paylama və istehlak zəncirləri. Demək olar ki, birinci və ikinci dəyər zəncirlərində işlər tamamlanıb. Hazırda paylama və istehlak zəncirlərində işlər davam edir. Bunun davam etməsinin də səbəbi odur ki, köç mütəmadidir. Proses davam etdiyinə görə, bu zəncirlər üzrə işlər davam edir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" layihələrinin genişləndirilməsi çərçivəsində Cəbrayılda 240 meqavat gücündə günəş elektrik stansiyasının enerji sisteminə inteqrasiyası üçün yarımstansiya tikilir. Paralel olaraq "Nobel Energy" şirkəti tərəfindən 100 MVt gücündə günəş elektrik stansiyasının tikintisi də başlanılıb. Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 500 MVt-a yaxın hidroenerji və 300 MVt-dan çox günəş enerjisi layihələrinin həyata keçirilməsi nəzərdə tutulur. "Xudafərin" və "Qız Qalası" Su Elektrik stansiyaları da daxil olmaqla, bölgənin ümumi "yaşıl enerji" potensialı 1000 MVt-dan artıq qiymətləndirilir. Bu isə 2040-cı ilə qədər regionun enerji tələbatının tam şəkildə bərpaolunan enerji mənbələri hesabına ödənməsinə imkan verəcək. Qeyd edək ki, təkcə 2024-cü il ərzində Qarabağ və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin iştirakı ilə 7 su elektrik stansiyasının açılışı olub. Belə ki, Kəlbəcər rayonunda son dörd ildə işğaldan azad edilən ərazilərdə tikilən ən böyük su elektrik stansiyası - 22,5 MVt-lıq "Yuxarı Vəng", 4,3 MVt-lıq "Zar", Laçın rayonunda 2,8 MVt-lıq "Zabux", 4,6 MVt-lıq "Qarıqışlaq", Zəngilan rayonunda isə hər birinin gücü 10,5 MVt olmaqla "Şayıflı", "Zəngilan" və "Sarıqışlaq" su elektrik stansiyaları istismara verilib. Bununla da Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı tapşırığının icrası üzrə işlər ardıcıllıqla görülür. 2025-ci ildə isə daha 11 su elektrik stansiyasının açılışı nəzərdə tutulub. Ümumilikdə isə növbəti illərdə əlavə olaraq 200 MVt-lıq su elektrik stansiyalarının tikiləcək. Sözsüz ki, davamlı inkişaf anlayışının təməlində yaşadığımız həyatın iqtisadi və sosial rifahı dayanır. İndi dünyanın bəzi ölkələrində günəş enerjisindən elektrik enerjisi əldə etmək məqsədilə günəş panellərindən, istilik və istisu təminatı üçün isə günəş kollektorlarından istifadə edilir. Günəş enerjisi texnologiyaları "yaşıl siyasət"lə bağlı müxtəlif beynəlxalq tədbirlərdə və yeni layihələrdə fəal iştirak edən Azərbaycanda bərpaolunan enerji istehsalı və ixracını artırmaq üçün mükəmməl hədəflər müəyyən edilib. Məhz buna görə də günəş və külək enerji istehsalını yaratmaq üçün bu sahəyə investisiyalar cəlb olunur, yaşıl zona üçün lazımi texnologiyaların tətbiqi həyata keçirilir.

Dünya daha bir təzadlı hadisənin şahidi olur. Belə ki, Ermənistanın 30 ilə yaxın işğalda saxladığı, talan etdiyi Qarabağ və Şərqi Zəngəzur əsarətdən azad edildikdən sonra Azərbaycan hökumətinin iradəsi və gücü ilə ölkəni "yaşıl enerji" ilə təmin edəcək. Qaranlığın (Ermənistan) və işığın (Azərbaycan) mübarizəsində haqq öz yerini tutub, ədalət bərpa edilib. Bölgədə Böyük Qayıdış, sülh, əmin-amanlıq, xoşbəxt həyat, firavanlıq, gələcək arzular artıq nura boyanır...

**Salman ALIOĞLU,**
**"Respublika".**